Bu gün ATU-da buraxılış günüdür!

http://www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 - cü ildən çıxır. №12 (1544) 25 iyun 2012 - ci il Qiyməti 20 qəpik



## Azərbaycan Respublikasının səhiyyə işçilərinin «Tərəqqi» medalı ilə təltif edilməsi haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

*Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:*

*Azərbaycan səhiyyəsinin inkişafındakı xidmətlərinə görə aşağıdakı şəxslər «Tərəqqi» medalı ilə təltif edilsinlər:*

Eyvazova Sevil Abdul Manaf qızı
Əliyeva Afaq Mehrəli qızı
Hüseynov Ədalət İslam oğlu
Hüseynova Lalə Əliheydər qızı
Mahmudova Rahilə Hüseyn qızı
Musayev Musa Astan oğlu
Nabatov Rəşadət Qurban oğlu
Rəhimov Aftandil Mahmud oğlu
Rzayev İlqar İlyas oğlu
Verdiyev Nazim Davudoviç

**İlham ƏLİYEV,**
*Azərbaycan Respublikasının Prezidenti*

**Bakı şəhəri, 18 iyun 2012-ci il**

## Azərbaycan Respublikasının səhiyyə işçilərinə fəxri adların verilməsi haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

*Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:*

*Azərbaycan səhiyyəsinin inkişafındakı xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:*

**"Əməkdar Elm Xadimi"**
İsayev İsa Hüseyn oğlu
Nəcəfov İmamyar Həsən oğlu

**«Əməkdar həkim»**
Xudiyev Azər Manaf oğlu
İsmayılova Adilə Əlviz qızı
Məmmədova Asya Hüseyn qızı
Mirzəyeva Svetlana Şəmşəd qızı
Novruzov Niyazi Hüseynqulu oğlu
Salahov Adil Qəzənfər oğlu
Sultanova Rumiyyə Ənvər qızı
Topçubaşov Ceyhun Mustafa oğlu
Vəliyeva Dilbazi Mahmud qızı

**«Əməkdar müəllim»**
Əmirəliyev Sabir Nurqələm oğlu
Məmmədova Zülfiyyə Beytulla qızı

**İlham ƏLİYEV,**
*Azərbaycan Respublikasının Prezidenti*

**Bakı şəhəri, 18 iyun 2012-ci il**

## Azərbaycan Tibb Universiteti ilə Türkiyənin Hacettepe Universiteti arasında müqavilə imzalanmışdır

**İyunun 21-də Türkiyənin nümayəndə heyəti ATU-da olmuşdur. Əvvəlcə tədris binalarına və universitet klinikalarına baş çəkən qonaqlar burada yaradılan şəraitdən məmnun qalmışlar. ATU -nun Tədris-Terapevtik Klinikasının direktoru, professor Surxay Musayev rəhbərlik etdiyi klinikanın maddi-texniki bazası haqqında ətraflı məlumat vermişdir.**

Qonaqları qəbul edən ATU-nun rektoru, Milli Məclisin deputatı, akademik Əhliman Əmiraslanov Prezident İlham Əliyevin müvafiq sərəncamları əsasında son illər inşa olunan klinikalar barədə danışmış, iki ölkə arasında təhsil əlaqələrinin əhəmiyyətini vurğulamışdır.

Respublikamız müstəqilliyini bərpa etdikdən sonra ATU-nun əlaqə yaratdığı ilk Türkiyə universitetinin məhz Hacettepe Universiteti olduğunu, qardaş ölkədə nüfuzlu tədris ocaqlarından biri kimi tanınan bu ali təhsil müəssisəsi ilə əməkdaşlığa mühüm önəm verildiyini söyləyən rektor bildirmişdir ki, hər iki universitetin bir-birindən öyrənəcəyi çox şeylər vardır.

ATU-nun Türkiyənin bir sıra universitetləri ilə əlaqələrinin olduğunu, keçən il 100-dək tələbənin mübadilə edildiyini söyləyən Ə.Əmiraslanov gələcəkdə elm və təhsil sahəsində müqavilələrin sayının artırılacağını, müxtəlif tədbirlərin birgə keçiriləcəyini diqqətə çatdırmışdır.

ATU ilə Hacettepe Universiteti arasında əməkdaşlığın iki qardaş ölkəni bir-birinə daha da yaxınlaşdırdığını və əlaqələri möhkəmləndirdiyini vurğulayan Ə.Əmiraslanov universitetlərarası əlaqələrin gələcəkdə də inkişaf edəcəyinə və genişlənəcəyinə ümid etdiyini bildirmişdir.

İki universitet arasında əlaqələrin qurulmasından 20 il keçdiyini xatırladan Hacettepe Universitetinin rektoru, professor Murat Tuncer həmin müddətdə ATU-da böyük dəyişikliklərin və irəliləyişlərin baş verdiyini vurğulamışdır. Ötən ilin dekabrından rektor kimi fəaliyyətə başladığını qeyd edən türkiyəli qonaq ilk işinin əcnəbi tələbələr üçün təqaüdün təsis edilməsi olduğunu söyləmişdir. M.Tuncer əməkdaşlığın hər iki tərəf üçün faydalı və səmərəli olacağına əminliyini ifadə edərək demişdir ki, bizim missiyamız bacardığımız qədər təhsilin inkişafına dəstək verməkdir.



Sonra ATU ilə Hacettepe Universiteti arasında əməkdaşlığa dair müqavilənin imzalanma mərasimi olmuşdur. Sənədi universitetlərin rektorları Ə.Əmiraslanov və M.Tuncer imzalamışlar.

Bildirilmişdir ki, müqavilənin məqsədi universitetlərarası əməkdaşlığı gücləndirmək, elm və təhsilin səviyyəsini yüksəltməkdir.

Professor M.Tuncerə "ATU-nun fəxri qonağı" diplomu təqdim edilmişdir.

Tədbirdə Türkiyənin Azərbaycandakı səfiri Hulusi Kılıç və Qafqaz Universitetinin rektoru Əhməd Saniç iştirak etmişlər.

**A.KAMRANOĞLU**

## BÖYÜK ELMİ ŞURADA

**İyunun 22-də Böyük Elmi Şura 2011/2012-ci tədris ilinin son iclasını keçirdi. İclası açan universitetin rektoru, millət vəkili, akademik Əhliman Əmiraslanov əvvəlcə ümumi cərrahiyyə kafedrasının müdiri, professor Çərkəz Cəfərovu və ETM-in farmakologiya şöbəsinin müdiri, professor Ramiz Axundovu 70 illik yubileyləri münasibətilə təbrik etdi, hər iki alimin universitetimizin həyatındakı xidmətlərini xüsusi vurğuladı. Yubilyarlara ATU-nun fəxri fərmanını təqdim edən rektor onlara uğurlar dilədi.**



"Azərbaycan Tibb Universiteti üzrə 2011/2012-ci tədris ilində Dövlət Attestasiya Komissiyası sədrlərinin hesabatları" dinlənildi.

I müalicə-profilaktika fakültəsi üzrə Elmi-Tədqiqat Hemotologiya və Transfiziologiya İnstitutunun baş həkimi, tibb üzrə fəlsəfə doktoru Eldar Hacıyev, II müalicə-profilaktika fakültəsi üzrə Elmi-Tədqiqat Ağ ciyər Xəstəlikləri İnstitutunun direktoru, professor Elcan Məmmədbəyov, pediatriya fakültəsi üzrə Ə.Əliyev adına Həkimləri Təkmilləşdirmə İnstitutunun pediatriya kafedrasının dosenti, tibb elmləri doktoru Rəqsanə Məmmədova, tibbi-profilaktika ixtisası üzrə Respublika Taun Əleyhinə Stansiyasının elmi işlər üzrə direktoru, tibb elmləri doktoru Şaiq Qurbanov, tibbi-biologiya ixtisası üzrə ETM-in direktoru, professor Qalib Qarayev, stomatologiya fakültəsi üzrə Ə.Əliyev adına Həkimləri Təkmilləşdirmə İnstitutunun stomatologiya kafedrasının müdiri, professor Oqtay Seyidbəyov, əczaçılıq fakültəsi üzrə Əczaçılıq və Tibb Sənayesi Birliyi-

(davamı səh. 2-də)

# BÖYÜK ELMİ ŞURADA

(əvvəli səh. 1-də)

nin baş direktoru Rüstəm Rüstəmbəyov, hərbi tibb fakültəsi və hərbi tibb məktəbi üzrə Müdafiə Nazirliyinin Hərbi Tibb



İdarəsi rəisi, t\x polkovniki Məcid Məsimov dövlət imtahanlarının yekunları və nəticələri haqqında ətraflı məlumat verdilər. İmtahanlarda tələbələrin biliklərinin obyektiv qiymətləndirildiyini, builki tələbələrin bilik səviyyəsinin yüksək olduğunu söylədilər.

Natiqlər dövlət buraxılış imhanlarının yüksək səviyyədə keçirilməsi üçün hər cür şəraitin yaradıldığını xüsusi qeyd etdilər.

Böyük Elmi Şura 2012/2013-cü tədris ili üçün universitet üzrə tədris planını və 2012/2013-cü tədris ili üçün ATU-nun iş planını da təsdiqlədi.

Sonra universitetin tədris-metodik innovasiya şöbəsinin müdiri Akif Qurbanov yeni yaradılan bu şöbədə əldə olunan bir sıra yeniliklərlə şura üzvləri ni tanış etdi.

Hesabatlara yekun vuran Ə.Əmiraslanov komissiya sədrlərinə öz təşəkkürünü bildirdi və onların hər birinin çalışdıqları sahədə mahir mütəxəssislər olduğunu vurğuladı. İmtahanların nəticələrinə gəldikdə isə universitetin rəhbəri bu il heç bir narazılığın olmadığını vurğuladı. Bu və digər məsələlərin metodik şurada müzakirə olunacağını bildirdi.

Müxtəlif məsələlərdən söhbət açan rektor tədris korpuslarında aparılan əsaslı təmir-tikinti işlərindən bəhs etdi, gələcəkdə də bu sahə üzrə nəzərdə tutulan bir sıra layihələrin həyata keçirilməsi barədə məlumat verdi.

Sonda professor-müəllim heyətinə mənalı istirahət arzulayan rektor şura üzvlərini və Dövlət Attestasiya Komissiyasının sədrlərini iyunun 25-də keçiriləcək ATU-nun buraxılış gecəsinə dəvət etdi.

**MƏNSUR**

# «Dəyirmi stol» keçirilmişdir

**◆ 14 iyun 2012-ci il tarixdə «Azərbaycan tarixi», «İqtisadiyyat və hüququn əsasları» kafedraları «Milli Qurtuluş günü» münasibəti ilə birgə «Dəyirmi stol» keçirmişlər.**



«Dəyirmi stol»»-u «Azərbaycan tarixi» kafedrasının müdiri, professor Fəxrəddin Məmmədov açaraq qeyd etdi ki, Azərbaycanın ən ağır günlərində, məmləkətin parçalandığı, vətəndaş müharibəsinə sürükləndiyi, siyasi sabitliyin alt-üst olduğu bir dövrdə ulu öndər Heydər Əliyevin öz xalqının köməyinə gəlməsi, iyunun 15-də Azərbaycan Respublikası Milli Məclisinin fövqəladə sessiyasında Ali Sovetin sədri seçilməsi azman tariximizdə yeni bir səhifənin açılmasına səbəb oldu. F.Məmmədov «Milli Qurtuluş günü» - «Azərbaycan tarixinin şanlı səhifəsidir» mövzusunda məruzə ilə çıxış etdi. O, qeyd etdi ki, ulu öndər Heydər Əliyevin iyunun 15-də ikinci dəfə hakimiyyətə gəlişi milli istiqlal uğrunda mücadilə tariximizdə yeni eranın başlanğıcı kimi qəbul edilməlidir. Məlumdur ki, istiqlalı əldə etmək nə qədər çətindirsə, onu qoruyub saxlamaq, möhkəmləndirmək daha çətindir. Bu şərəfli missiya məhz xalqın xilaskarı Heydər Əliyevin üzərinə düşdü. F.Məmmədov məruzəsində 1991-1993-cü illərin qısa tarixi mənzərəsini şərh etdi və çıxışını belə yekunlaşdırdı ki, illər, qərinələr, əsrlər ötəcək, «Milli Qurtuluş günü» tariximizin dəyərli səhifəsi kimi daim xatırlanacaq.

«Dəyirmi stol»da «İqtisadiyyat və hüququn əsasları» kafedrasının müdiri, dosent Yavər Vəliyev «Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişi Azərbaycan dövlətçiliyinin xilası günüdür» mövzusunda məruzə ilə çıxış etdi. O da 1991-1993-cü il hadisələrini, ölkənin xaos vəziyyətinə düşdüyünü, bundan daxili və xarici qüvvələrin istifadə istəyini xatırlatdı. Y.Vəliyev qeyd etdi ki, məmləkətin belə bir ağır günündə ulu öndər öz xilaskarlıq missiyasını yerinə yetirməsəydi, indi tariximiz bəlkə də başqa istiqamətlərə yönəlmişdi.

Hər iki kafedranın təşkil etdiyi «Dəyirmi stol»da «Azərbaycan tarixi» kafedrasının əməkdaşlarından dosent C.Sadıqov, t.e.n. A.Təhməzova, «İqtisadiyyat və hüququn əsasları» kafedrasının əməkdaşı, baş müəllim N.Namazova çıxış etdilər.

**Qəmər ƏLİQIZI**

# “AZƏRBAYCANDA SƏHİYYƏ SAHƏSİNDƏ TƏHSİL SİSTEMİ TAMAMİLƏ DƏYİŞDİ” - REZİDENTURA TƏNTƏNƏSİ BAŞ TUTDU

**◆ Bütün dünyada olduğu kimi Azərbaycanda da diplomdansonrakı tibb təhsilinin keyfiyyətli aparılması hazırlığı səhiyyə strukturlarının dayaqlarının möhkəmliyinin əsas amillərindəndir. Belə hazırlıq keçmiş SSRİ məkanında internatura kursu formasında aparıldığından, bu forma Azərbaycan Dövlət Tibb İnstitutunda da tətbiq edilirdi. ATİ-də diplomdansonrakı internatura təhsilinin tədrisinə XX əsrin 70-ci illərinin əvvəllərindən başlanılmışdı. Azərbaycan özünün dövlət müstəqilliyini bərpa etdikdən sonra ulu öndər Heydər Əliyevin fədakar əməyi sayəsində hər sahədə, eləcə də səhiyyənin bütün sahələrində, o cümlədən tibb təhsili sahəsində də ölkəmizin beynəlxalq əlaqələrinin genişlənməsi göstərdi ki, internatura yolu ilə tibb kadrları hazırlığının imkanları çox məhduddur və yüksək səviyyəli hərtərəfli mütəxəssis hazırlığı üçün nəinki xeyirsiz, hətta ziyanlıdır.**



Fotolar Cənnətali ƏZİZİNİN

Bu ifadələrin ideya təcəssümü ilk dəfə özünü 1993-1994-cü illərdə Azərbaycan Tibb Universitetinin rektoru, akademik Əhliman Əmiraslanovun ATU-nun elmi şura iclaslarındakı çıxışlarında öz əksini tapmışdı (bax: ATU-nun həmin dövrlərdəki elmi şura iclaslarının stenoqramları). Akademik qeyd edirdi ki, « Əgər biz səhiyyə sistemimiz, millətimiz, xalqımız üçün həqiqətən dəyərli tibb kadrları hazırlamaq, dünya təhsil sisteminə inteqrasiya etmək, ATU-nun verdiyi diplomların xarici ölkələrdə də tanınmasını istəyiriksə, mütləq diplomdansonrakı hazırlığın rezidentura pilləsinə keçməliyik». O vaxtlar bu terminin əsas məğzi çoxları üçün tam aydın olmadığına görə Əhliman müəllim demək olar ki, mütəmadi olaraq elmi şura iclaslarında yenidən bu mövzuya qayıdır, rezidentura sisteminin incəliklərini, görünməyən tərəflərini, elmi məziyyətlərini aydın və sadə dildə izah edirdi.

Belə çıxışlardan sonra ATU-nun professor - müəllim heyəti tərəfindən bu sahənin əsl mahiyyəti, onun icra mexanizmi, təşkili, tədrisinin özəllikləri barədə elmi şura iclaslarında ardıcıl müzakirələr aparıldı, diplomdansonrakı hazırlığın islahatlar yolu ilə yeni formaya - rezidentura pilləsinə keçidi elmi şura üzvləri tərəfindən bəyənildi. Lakin tələbələr arasında ya maarifləndirmə mexanizminin zəifliyi, yaxud da digər səbəblər üzündən onlarda və onların valideynlərində bu sistemə qarşı əks fikirlər, hətta fobiya yaranmışdı. Bu məsələdə görünür bilərəkdən, ya bilməyərəkdən bəzi diletant şəxslərin qızışdırıcı xoşagəlməz təhrikləri də müəyyən rol oynayırdı və onlar tələbələri lüzumsuz piketlər keçirməyə, onları öz xeyirlərinə, gələcək xoşbəxtliklərinə qarşı çıxmağa sövq edirdilər. Həmin dövrdə özünə və sözünə əmin olan rektor alnıaçıq, üzüağ piketçilərin qarşısına çıxaraq onlara təmkinlə rezidenturanın nə demək olduğunu, onun məğzinin nədən ibarət olduğunu incəliklərinə qədər başa saldı və tələbələrə aydın oldu ki, heç də məsələ onlara aşılanan yanlışlıqlardan ibarət deyil, bu sistem onların ziyanına yox, əksinə xeyirlərinə olan lazımlı bir layihədir. Beynəlxalq miqyasda çoxdan tətbiq edilən rezidentura pilləsinin Azərbaycanda, hətta kiçik bir qrup tərəfindən də olsa, süngü ilə qarşılanması müstəqil ölkəmizə yalnız nöqsan sayıla bilərdi. Buna isə təbii ki, heç bir vəchlə yol verməmək olmazdı. ATU bu yolda öz imkanları və öz səlahiyyətləri çərçivəsində mümkün olanları edə bildi.

Artıq 2005-2006-cı illərdə Azərbaycan Respublikası səhiyyə naziri Oqtay Şirəliyevin diqqət və qayğısı sayəsində tibb təhsilinin diplomdansonrakı hazırlığının rezidentura pilləsinə keçidinin labüdlüyü özünü hər sahədə göstərməyə başladı.

Beynəlxalq əlaqələri durmadan artan tələbələr də əmin oldular ki, diplomdansonrakı təhsili rezidentura yolu ilə almayan mütəxəssis həmin sahənin dəyərli həkimi, professionalı sayılmır və onlar həm ölkəmizdə, həm də inkişaf etmiş xarici ölkələrdə böyük çətinliklərlə üzləşirlər.

2011-ci ilin iyun ayında rezidentura məsələsinin həllinə tam aydınlıq gətirildi. Belə ki, həmin tarixdə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin növbəti kollegiya iclası genişləndirilmiş şəkildə Azərbaycan Tibb Universitetinin Tədris - Terapevtik Klinikasında ATU-nun elmi şura üzvləri ilə birlikdə keçirildi. Kollegiya iclasını giriş sözü ilə açan səhiyyə naziri Oqtay Şirəliyev tibb təhsilindəki yeniliklər, həmçinin rezidentura pilləsinə keçid haqqında toplantı iştirakçılarına məlumat verdi. Sonra Səhiyyə Nazirliyi aparatının rəhbəri Zəkiyyə Mustafayeva və ATU-nun rezidentura şöbəsinin müdiri dosent Hacıqulu Bağırov rezidenturaya qəbula hazırlıq işlərinə, maddi - texniki bazanın müvafiqliyinə dair geniş məlumat verdilər. Qeyd edildi ki, 2009-cu il iyunun 19-da “Təhsil haqqında” Azərbaycan Respublikası Qanunu qəbul edildikdən sonra diplomdansonrakı təhsilin rezidentura yolu ilə aparılmasına hazırlıq tədbirlərinə başlanıldı. Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2010-cu il 18 mart tarixli 50 nömrəli Qərarı ilə “Rezidentura təhsilinin məzmunu və təşkili qaydaları”, 2010-cu il 6 sentyabr tarixli 164 nömrəli Qərarı ilə isə “Rezidenturada həkim - mütəxəssis hazırlığı aparılan həkim ixtisaslarının siyahısı” təsdiq edildi. Səhiyyə Nazirliyinin rezidenturada həkim - mütəxəssislərin hazırlığının təşkili və tətbiqi haqqında 2010-cu il 23 iyul tarixli 57 nömrəli əmri verildi və bu əmrə əsasən 2011-ci ildən etibarən rezidentura pilləsində təhsilə başlanılması təsdiqləndi.

Nəhayət, nazirin səhiyyənin bütün sahələrində, o cümlədən tibb təhsili sahəsində apardığı geniş miqyaslı kadr islahatları bəhrəli nəticələr verdi, 2011-2012-ci tədris ilinin başlanğıcında Azərbaycan Tibb Universitetində diplomdansonrakı təhsilin rezidentura sistemi ilə aparılmasına başlanıldı və ATU-da bu pillənin bünövrəsi qoyuldu. 2011-ci il dekabrın 30-da ilin yekunlarına həsr olunmuş kollegiya iclasında çıxış edən Azərbaycan Respublikası səhiyyə naziri Oqtay Şirəliyev rezidenturaya keçidi tarixi hadisə adlandıraraq demişdir: «Artıq Azərbaycanda da inkişaf etmiş ölkələrin təhsil sistemi qəbul edilib. Bu ildən ilk dəfə Azərbaycan Tibb Universitetində rezidenturaya qəbul başlayıb. Bu, tarixi hadisədir. Biz deyə bilərik ki, Azərbaycanda səhiyyə sahəsində təhsil sistemi tamamilə dəyişdi».

Həmin kollegiya iclasında çıxış edən ATU-nun rektoru, akademik Əhliman Əmiraslanov xüsusi diqqəti rezidenturanın baş tutmasının əhəmiyyətinə yönəltmişdir: «Diplomdansonrakı təhsil bu gün dünyanın qəbul etdiyi ən effektli təhsil üsuludur. Biz səhiyyə naziri Oqtay Şirəliyevin təkidi sayəsində rezidentura sisteminə keçə bildik. Bu il rezidenturaya sənəd verən 1063 nəfərdən 314-ü qəbul olunub. TQDK-nın təqdim etdiyi rəqəmlərə görə, Odlar Yurdu Universitetini bitirmiş və rezidenturaya sənəd vermiş 108 nəfərdən cəmi 1-i, Xəzər Universitetini bitirmiş və rezidenturaya sənəd vermiş 42 nəfərdən isə 3-ü uğur qazanıb. Ümumilikdə rezidenturaya qəbul olmuş 314 nəfərdən 305 nəfəri ATU-nun məzunlarıdır».

ATU-nun rezidentura şöbəsinin hazırkı müdiri dosent Rizvan Məmmədovun məlumatına görə, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin klinik bazalarında, eləcə də ATU-nun tədris müəssisələri və Tədris Klinikalarında siyahı ilə təsdiqlənmiş 40 ixtisas üzrə rezidentlərin ilk təhsil ili uğurla keçmiş və universitetimizin müvafiq kafedralarının əməkdaşları öz vəzifə borclarını şərəflə yerinə yetirməyə, ölkəmiz üçün dünya standartlarına cavab verə bilən peşəkar mütəxəssislər hazırlamağa səy göstərirlər. Rezidenturada praktik və nəzəri hazırlıq işləri plan və proqrama uyğun şəkildə aparılır.

Beləliklə, Azərbaycan Tibb Universitetinin professor - müəllim heyəti bu təhsil ocağında diplomdansonrakı təhsilin rezidentura pilləsinə keçidini ürəkdən alqışlayır və bunu müstəqil Azərbaycan Respublikasının tibb işçilərinin peşə bayramına dəyərli töhfə hesab edir.

**Mübariz ALLAHVERDİYEV,**
*ATU-nun Mətbuat xidmətinin rəhbəri, insan anatomiyası kafedrasının professoru*

# DEKANLAR İMTAHANLARIN NƏTİCƏLƏRİNDƏN RAZIDIRLAR

**Dövlət-buraxılış imtahanları artıq sona çatıb. İmtahanların gedişatında obyektivlik və aşkarlıq gözlənilmiş, hər bir tələbənin hazırlaşıb sərbəst cavab verməsi üçün əlverişli şərait yaradılmışdır.**

**İmtahanların nəticələri ilə daha yaxından tanış olmaq, bu-ilki məzunlar haqqında statistik məlumatlar almaq üçün I müalicə işi fakültəsinin dekanı, professor Abuzər Qazıyev, II müalicə işi fakültəsinin dekanı, dosent Taryel İsmayılov, pediatriya fakültəsinin dekanı, dosent Nəriman Nağıyev, tibbi-profilaktika və tibbi-biologiya fakültəsinin dekanı, dosent Aydın Məmmədov, stomatologiya fakültəsinin dekanı, professor Zöhrab Qarayev, hərbi tibb fakültəsinin rəisi, tibb xidməti polkovniki Rafiq Quliyev və əczaçılıq fakültəsinin dekanı, dosent Xəlil Xəlilovla əlaqə saxladıq.**

Məlum oldu ki, bu il I müalicə işi fakültəsində məzunların sayı 276 nəfərdir. Fərqlənmə diplomuna 35 nəfər layiq görülüb ki, onlardan da 7-si Prezident təqaüdçüsüdür.

II müalicə işi fakültəsini isə 261 nəfər bitirir. Onların sırasında 7-si Prezident təqaüdçüsü olmaqla fərqlənmə diplomuna layiq görülən 33 məzun var.

Tibbi-profilaktika və tibbi-biologiya fakültəsini tibbi-profilaktika ixtisası üzrə 49, tibbi-biologiya ixtisası üzrə 41 məzun bitirir.

Stomatologiya fakültəsini bitirən 270 məzunun 10 nəfəri Prezident təqaüdünə layiq görülüb.

Hərbi tibb fakültəsində Azərbaycan Respublikası Silahlı Qüvvələri üçün peşəkar hərbi həkim və hərbi feldşer ixtisasları üzrə mütəxəssislər hazırlanır. Bu ilki müdavimlərin də uğurla hərbi xidmətə başlayacaqları şübhə doğurmur.

Əczaçılıq fakültəsini 41 məzun bitirmişdir. Beş illik əczaçı kadrların hazırlanması dörd illik əczaçı-bakalavr və iki illik magistrant hazırlanması ilə əvəz olunmuşdur.

Qeyd edək ki, şəffaflıq və tələbkarlıq şəraitində keçirilmiş imtahanlarda heç bir münaqişə halı yaranmamışdır. Xırda narazılıqlar operativ olaraq Dövlət Attestasiya Komissiyası tərəfindən yerindəcə də həll edilmişdir.

ATU-nun rektoru, millət vəkili, akademik Əhliman Əmiraslanov dövlət-buraxılış imtahanlarının gedişini daim nəzarətdə saxlamışdır.



**Aynur Nağıyeva** 1988-ci il mayın 23-də Neftçala şəhərində həkim ailəsində anadan olub. Atası stomatoloq, anası isə pediatrdır. Bacısı tibb tələbəsi, qardaşı isə məktəblidir. 1995-2006-cı illərdə Yasamal rayonundakı 158 saylı orta məktəbdə təhsil alıb. 2006-cı ildə orta təhsilini əla qiymətlərlə bitirib, 663 balla ATU-nun müalicə işi fakültəsinə daxil olub, Prezident təqaüdünə layiq görülüb.

Tibb Universitetində təhsil aldığı illərdə Türkiyənin Ankara İbn Sina klinikasında (2009) ginekologiya ixtisası üzrə, Almaniyanın Hannover şəhərində (2011) plastik cərrahiyyə üzrə tibbi təcrübə keçib.

Bu il ali təhsilini əla qiymətlərlə bitirir. Rezidentura təhsilini mama-ginekoloq ixtisası üzrə Almaniyada davam etdirməyi planlaşdırır.

İngilis, alman, fransız dillərini bilir.



**Şirinova Şükufə:** «Məktəb şagirdi olarkən gələcəyim barədə düşündə özümü həmişə uşaqların arasında xəyal eləyə bilərdim. Hər zaman uşaqlarçün əlimdən gələni eləmək istəmişəm. Ən çox mənə yaxın olan ixtisas həkimlik idi. Bu yolu da seçdim.

Milli Konservatoriyanın nəzdində Respublika İncəsənət Gimnaziyasını 2006-cı ildə fərqlənmə ilə bitirdim. Həmin il Azərbaycan Tibb Universitetinin pediatriya fakültəsinə daxil oldum. Həyatımda yeni mərhələ başladı. Tələbəlik həyatım çox sevdiyim, dəyər verdiyim dostlarımın arasında keçib. Həyatımızın bu mərhələsində bir-birimizdən də çox şey öyrənib özümüzə ömürlük sadiq, dürüst, mehriban və gülərüz dostlar qazandıq.

Bizə dərs deyən, mühazirə oxuyan, öz ixtisasımızı hədsiz dərəcədə sevdirən müəllimlərimizdən həyat təcrübəsi öyrənmişik.

İndi yenə həyatımızın başqa bir mərhələsinə başlamaq üzrəyik. İnşallah, öz üzərimizdə işləyərək daha çox bilik və təcrübə toplayacaq, təkmilləşəcək, vicdanlı həkimlər olacaq, bizə ehtiyacı olan uşaqlar üçün əlimizdən gələn hər şeyi edəcəyik».

# Azərbaycan Tibb Universitetini əla qiymətlərlə başa vuran məzunlarımız



**Həşimov Samir Şamil oğlu** 2006-cı ildə Sumqayıt şəhər Özəl Türk Liseyini bitirərək ATU-nun pediatriya fakültəsinə daxil olub. Təhsil aldığı illərdə dərs əlaçısı olub, TEC-də aktiv iştirak edib, dəfələrlə yerli və beynəlxalq konfranslarda çıxış edib.

Hələ orta məktəbdə təhsil alarkən yeniyetmələr arasında yerli və beynəlxalq yarışlarda iştirak etmiş, 2004-cü ldə Avropa çempionatının qızıl mükafatçısı olmuşdur.

Artıq imtahan verərək Münhen Dövlət Xəstəxanası-nda "burun, qulaq, boğaz (lor),, ixtisası üzrə rezidenturaya qəbul olunub.

Universitetimizi olimpiadada və yarışlarda təmsil edərək 3 dəfə qızıl, 1 dəfə gümüş medalla təltif olunmuşdu.

Gələcək arzusu yüksək ixtisaslı mütəxəssis kimi insanların sağlamlığı keşiyində durmaqdır.



**Məmmədova Ceyran Əlirza qızı** 1988-ci il oktyabrın 7-də Füzuli rayonunda anadan olub. 1995-ci ildə Nizami rayonu, E.Cəlilov adına 272 saylı orta məktəbin I sinfinə gedib. 2002-2005-ci illərdə təhsilini Nizami rayonundakı kimya-biologiya təmayüllü liseydə davam etdirib. 2006-cı ildə Xətai rayonu, Z.Əhmədov adına 64 saylı orta məktəbi bitirib. Həmin il 673 balla Azərbaycan Tibb Universitetinə daxil olub. 6 illik ali təhsilini Prezident təqaüdçüsü kimi qırmızı diplomla başa vurub.



**Zamanova Könül İlqar qızı** 1988-ci il iyulun 10-da Bakı şəhərində anadan olub. 1995-ci ildə Bakı şəhəri, Xətai rayonu 95 saylı orta məktəbin I sinfinə getmiş, 2006-cı ildə məktəbi əla qiymətlərlə bitirmişdir. Elə həmin il 666 balla ATU-ya qəbul olub və Prezident təqaüdünə layiq görülüb. IV kursda daxili xəstəliklərin propedevtikası fənnindən yazdığı elmi iş müsabiqədə I yeri tutmuşdur. Universiteti əla qiymətlərlə bitirir. Ən böyük arzusu həkim adını doğrultmaqdır.



**Ələkbərov Həsən Xanlar** oğlu 1995-ci ildə 116 saylı orta məktəbin I sinfinə getmiş, 2006-cı ildə həmin məktəbi müvəffəqiyyətlə bitirmişdir. 680 balla Azərbaycan Tibb Universitetinin müalicə işi fakültəsinə qəbul olan Həsən Ələkbərov təhsil dövründə özünü dərin savada malik intizamlı tələbə kimi göstərmişdir. Prezident təqaüdçüsüdür, universiteti fərqlənmə diplomu ilə bitirir.



**Əmiraslanlı Bəxtiyar Ramazan oğlu** 1989-cu il martın 24-də Sumqayıt şəhərində doğulub. 1995-ci ildə Sumqayıt şəhəri, 21 saylı orta məktəbin I sinfinə gedib. 2006-cı ildə həmin məktəbi əla qiymətlərlə bitirib. Elə həmin il 667 balla ATU-nun müalicə işi fakültəsinə daxil olub, Prezident təqaüdçüsü adına layiq görülüb. Universiteti Prezident təqaüdü ilə bitirir. Arzusu tanınmış cərrah olmaqdır.



**Ağazadə Rüstəm Rasim oğlu** 9 yanvar 1990-cı ildə Bakı şəhərində anadan olub. 1996-cı ildə 248 saylı məktəbin I sinfinə gedib. Məktəb illərində biologiya fənni üzrə bir sıra rayon və şəhər olimpiadalarının iştirakçısı və qalibi olmuşdur. 2007-ci ildə həmin məktəbi bitirib, 690 bal toplayaraq ATU-nun stomatologiya fakültəsinə daxil olub və Prezident təqaüdünə layiq görülüb. Universitet TEC-də fəal iştirak edib. 2008-ci və 2010-cu ildə birinci dərəcəli diplom ilə təltif olunub. 2012-ci ildə Almaniyanın Hamburq şəhərində 65 ölkənin iştirakı ilə keçirilən implantoloqların 15-ci ümumdünya konqresində tələbə elmi işi ilə çıxış edərək 1-ci yerə layiq görülüb.



**Həsənova Nərgiz Cabbar qızı** 1991-ci ildə Naxçıvan Muxtar Respublikasının Nehrəm kəndində anadan olub. 1996-cı ildə Bakı şəhəri, Xətai rayonu 194 saylı orta məktəbin 1-ci sinfinə gedib. 2007-ci ildə həmin məktəbi bitirərək ATU-nun stomatologiya fakültəsinə daxil olub.

Atası Həsənov Cabbar «İmplant-Dent» klinikasında stomatoloq vəzifəsində çalışır. Anası Səyyarə xanım 26 saylı şəhər poliklinikasında otolorinqoloqdur.

Həkim adının şərəfini qoruyacağına əmindir.



**Hüseynov Firdovsi Kamran oğlu** 1988-ci ildə Naxçıvan MR, Culfa rayonunun Bənəniyar kəndində ziyalı ailəsində doğulub. 2006-cı ildə tam orta məktəbi əla qiymətlərlə bitirərək Azərbaycan Tibb Universitetinin müalicə-profilaktika fakültəsinə daxil olub. 2010-cu ildən təhsilini hərbi tibb fakültəsində davam etdirir. hərbi tibb fakültəsində oxuduğu müddət ərzində özünü nizam-intizamlı, bacarıqlı, tərbiyəli, nümunəvi kursant kimi göstərmiş, komandir və rəislərin verdiyi əmr və göstərişləri vaxtlı-vaxtında yerinə yetirmiş, bütün şəxsi heyət arasında hörmət qazanmışdır. Kursant F.Hüseynov dövlət imtahanlarını əla qiymətlərlə başa vurmuş və Azərbaycan Respublikası Silahlı Qüvvələrində hərbçi həkim kimi xidmətini davam etdirmək üçün təyinat almışdır.



**Şixanov Cəlal Saləddin oğlu** ilk dəfə 2009-cu ildə hərbi tibb fakültəsinin Hərbi Tibb Məktəbinə sənədlərini vermiş və qəbul ola bilməmiş, buna baxmayaraq 2010-cu ildə sənədlərini yenidən vermiş, qəbul olmuşdur.

Kursant Şixanov həkimlik sənətini sevir və Azərbaycan Respublikası Silahlı Qüvvələrində xidmət etməkdən böyük şərəf hissi duyduğunu bildirmişdir.

2012-ci ildə hərbi tibb fakültəsinin Hərbi Tibb Məktəbində əzmkarlığı, çalışqanlığı ilə bütün fənlərdən əla qiymətlər almağa nail olmuş və Hərbi Tibb Məktəbini qırmızı diploma bitirərək təyinatını Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi hissəsinə almışdır. Əminik ki, gizir C.Şixanov vətənə olan güclü məhəbbəti, sadiqliyi, zəhmətkeşliyi, peşəsinə sevgisi və məsuliyyəti ilə seçilərək torpaqlarımızın azadlığı uğrunda hərbi xidmətdə böyük nailiyyətlər qazanacaq. Uğurlar olsun, Vətən əsgəri!



**Xankişiyev Rüfət Əliqismət oğlu** 1988-ci il noyabrın 10-da Bakı şəhərində anadan olub. 1995-ci ildə Zəngi liseyində 1-ci sinfə gedib və 2006-cı ildə məktəbi əla qiymətlərlə başa vurub. Elə həmin il 655 balla ATU-ya qəbul olub və Prezident təqaüdünə layiq görülüb. Universiteti əla qiymətlərlə bitirir. Ən böyük arzusu kardiocərrahiyə sahəsi üzrə Azərbaycanda faydalı mütəxəssis kimi yetişməkdir.



**Elbəyiyev Sərxan Eldar oğlu** 1995-ci ildə Gəncə şəhəri, Mir Cəlal Paşayev adına 39 saylı orta məktəbin I sinfinə getmiş, 2006-cı ildə həmin məktəbi müvəffəqiyyətlə bitirmişdir. Elə həmin il 667 balla ATU-nun müalicə işi fakültəsinə qəbul olub. Təhsil dövründə özünü yüksək təşkilatı hazırlığa və dərin savada malik intizamlı tələbə kimi göstərən S.Elbəyiyev Prezident təqaüdçüsüdür, universiteti fərqlənmə diplomu ilə bitirir.

**ATU-nu əla qiymətlərlə bitirən bu məzunların nümunəsində bütün məzunları səmimi qəlbdən təbrik edir, müstəqil həkimlik fəaliyyəti üçün vəsiqə alan gənclərimizə böyük uğurlar diləyirik!**

# Avropa tibb işçilərinin konqresində həmyerlimiz ordenlə təltif edilmişdir

**◆ Almaniyada keçirilən tibb işçilərinin konqresində Bakı Şəhəri üzrə Təhsil İdarəsinin multimedia sektorunun müdiri, Avropa Təhsil Elmləri Akademiyasının akademik, uşaq yazıçısı, «İrs» dərsliyinin müəllifi Solmaz Amanova «Avropanın şərəfi» ordeni ilə təltif edilmişdir.**

AzərTac xəbər verir ki, həmyerlimiz bu mükafata uşaq tibb ədəbiyyatının inkişafına böyük töhfələr vermiş «Monastır apteki» kitabına görə layiq görülmüşdür. Azərbaycan Tibb Universitetinin farmakologiya kafedrasının müdiri, professor Musa Qəniyevin redaktorluğu ilə nəşr edilən bu kitab Avropa tibb işçilərinin marağına səbəb olmuşdur.

S.Amanovanın yaradıcılığı əsasında rus və Azərbaycan dillərində 30-dan çox cizgi filmi çəkilmişdi.

# Universitetimizin rəssam tələbəsi

**◆ Bağırova Aynur Rasim qızı 1991-ci il 8 dekabr tarixində Əli Bayramlı (indiki Şirvan) şəhərində anadan olub. 1998-ci ildə şəhər 9 saylı orta məktəbinin I sinfinə gedib, 2009-cu ildə məktəbi bitirərək ATU-nun tibbi-profilaktika fakültəsinə qəbul olunub.**

Şəkil çəkməyə uşaqlıqdan maraq göstərib. Daha mükəmməl hesab edilən rəsmləri I, II kursla bağlıdır. Rəsmlərində təbiəti müxtəlif fəsillərdə, dəyişik prizmalarda göstərməyi xoşlayır.



Rəssamlıqla bağlı xüsusi müəllimi olmayıb, amma kursa gedib daha da təkmilləşmək arzusundadır:




«Dərslərin çoxluğu ilə əlaqədar yalnız tətillərdə çəkirəm. Bir rəsmin uzərində 1 aya yaxın işləyirəm. Rayonları gəzərkən müxtəlif fotoşəkillər çəkib öz xəyal gücümü də əlavə edib fırçanı əlimə alıram.»

Gələcəkdə həkim-infeksionist ixtisasını seçmək, eyni zamanda peşəkar rəssam olmaq arzusundadır.

**Afət İSMAYILOVA**

# Dişləri ardıcıl fırçalamaq ürək üçün xeyirlidir

**◆ Alimlər qanayan diş ətləri vasitəsilə qan-damar sisteminə daxil olan bakteriyalardan xilas olmaq üçün dişlərin gün ərzində iki dəfə fırçalanmasının böyük əhəmiyyət daşıdığını demişlər.**

Müvafiq elm adamlarına görə dişləri ardıcıl fırçalamaq ölümcül ürək xəstəliklərinin baş qaldırmasının qarşısını alır.

Ağızda çoxalan bakteriyalar dişlər fırçalanmadıqda qanayan diş ətləri vasitəsilə qana keçərək nadir hallarda rast gəlinən, lakin çox zaman ölümlə nəticələnən yoluxucu endokardit xəstəliyinə səbəb ola bilər.

Qan dövranına daxil ola bilən „streptococcus gordonii“ adlanan bakteriya qanın laxtalanmasına səbəb olur. Bu laxtaların içində yerləşən bakteriya hətta immun sistemindən və antibiotiklərdən də qoruna bilir. Əgər bu qan laxtası ürək qapaqlarına gedib çatarsa, xəstəlik oraya nüfuz edir və bir çox hallarda ölümlə nəticələnir.

Bristol Universitetinin alimləri bu qan laxtalarından müdafiə olunmaq üçün yeni dərmanlar tapmağa çalışırlar. Bu arada isə yerinə yetirilməli olan ən vacib iş dişləri müntəzəm olaraq fırçalamaq hesab edilir.

# Cümə günü, ayın 13-ü - adamlar bu gündən niyə qorxurlar?

**◆ Bu gün ayın 13-ü, həm də cümə günüdür. Yer əhlinin mühüm bir qismi inanır ki, ayın və həftənin bu günlərinin bir-birinə təsadüf etməsi bədlik, uğursuzluq gətirir. Ta qədimdən ayın 13-cü gününün cüməyə təsadüf etməsi mistik məna daşıyıb. Bu günün mistik cazibəsi insanlara bu gün də rahatlıq vermir. Elm adamları isə bunu xurafat əlaməti sayırlar.**

Həmin xurafatçı inanclara görə, ayın 13-ü cüməyə təsadüf edəndə qaniçənlər, əcinnələr və sair şeytani qüvvələr bir yerə yığışır, demonik toplantı, şabaş keçirirlər. Gecə yarısı olanda isə onlar dəhşətli əməllər törədirlər.

Bu xurafata inamın güclü olmasına görə keçmişdə ayın 13-ü cüməyə düşəndə toy etməzmişlər, gəmilər limanlardan ayrılmazmış, heç bir saziş bağlanmazmış. Hətta insanlar çalışarmışlar ki, evdən bayıra çıxmasınlar.

Bəzi versiyalara görə, "13-ü, cümə"nin nəhs gün sayılması İsa peyğəmbərlə bağlıdır. Onu məhz ayın 13-də, cümə günü çarmıxa çəkiblər. Üstəlik, peyğəmbəri satan mürid İuda gizli gecədə keçirilən toplantıda 13-cü iştirakçı olmuşdur.

Qədim romalılar və yunanlar da 13 rəqəmindən qaçaq olmuşlar. Onlar da hesab edirmişlər ki, bu gün uğursuzluq gətirir.

İngiltərədə hələ də cümə günü dənizə çıxmırlar, həmin gün ayın 13-dürsə, mütləq səfəri təxirə salmaq üçün bəhanə tapırlar.

XVIII əsrdə bu xurafat o qədər güclənib ki, ingilis hökuməti onu darmadağın etmək qərarına gəlib. Bu məqsədlə "Cümə" adlı gəmi hazırlanıb və həmin gəmi tərsanədən suya məhz cümə günü buraxılıb. Amma gəminin sonrakı taleyi məlum xurafatı daha da gücləndirib. Cümə günü ilk reysinə çıxan "Cümə" ekipajı ilə birlikdə itkin düşüb və tapılmayıb.

Dənizçilərdən başqa, ingilis cərrahları da "13-ü, cümə"dən qorxurlar və həmin günə təyin olunmuş əməliyyatları təxirə salırlar ki, uğursuzluqla qarşılaşmasınlar.

Yeri gəlmişkən, İngiltərədə kinoteatrlarda 13 saylı kreslo olmur. Əgər bir qonaqlığa 13 adam gəlibsə, mütləq 14-cü kürsü də qoyur, ona maneken otuzdurur, hətta qarşısına yemək-içmək də qoyurlar.

Almaniya, Avstriya və Skandinaviya ölkələrinə məxsus hava yolları şirkətlərinin təyyarələrində 13 saylı kreslo qoyulmur.

Portuqaliya və İspaniyada isə əksinə, həftənin 5-ci gününü dənizə çıxmaq üçün ən uğurlu gün sayırlar. Çünki Xristofor Kolumb Amerikanı cümə günü kəşf edib. Yəqin ki, müasir hindular üçün bu, tarixin ən nəhs, ən uğursuz günüdür. Ona görə ki, məhz o gündən başlayaraq onların rahatlığı pozulub, qətliama, deportasiyaya, rezervuarlarda yaşamağa məcbur olublar.

# Halva sinir sistemini möhkəmləndirir

◆ Diyetoloqlar təbii xammaldan hazırlanmış sağlam şirniyyatlara üstünlük verməyi, yəni həm faydalı, həm də dadlı ərzaqlardan istifadə olunmasını tövsiyə edirlər.

Alimlərin apardıqları tədqiqat sayəsində məlum olmuşdur ki, halva orqanizmi cavanlaşdıran və sağlamlığı yaxşılaşdıran qəribə xassələrə malikdir. Məsələn, halva sinir sistemini möhkəmləndirir, habelə qan dövranının yaxşılaşmasına kömək göstərir. Əgər halva bütün resept şərtlərinə əməl etməklə hazırlanmışsa, onun tərkibi mikroelementlərlə, yəni natrium, kalium, fosfor, maqnezium, mis, protein, sink, dəmir, habelə müxtəlif ərzaq turşuları ilə zəngin olur.

Tərkibində bir çox faydalı maddələr olduğuna görə, halvadan uşaq qidası kimi istifadə edilməsinə icazə verilmişdir. Halvanın hazırlanması üçün istifadə edilən günəbaxan tumu, küncüt və qoz-fındığın tərkibində xeyli miqdarda A, E və B qrup vitaminlər vardır. A vitamini uşağın normal inkişafı və görmə qabiliyyəti üçün zəruridir, E vitamini ürək-damar sisteminin işinə müsbət təsir göstərir, B qrupuna aid vitaminlər isə yaddaşı yaxşılaşdırır, immun sistemini möhkəmləndirir.

Faydalı halva yalnız təbii ərzaq məhsullarından ibarət inqrediyentlərdən hazırlanmalıdır, onun tərkibində turşuluq verən maddələr, yeyinti boyaqları, süni mənşəli aromatik maddələr, habelə emulqatorlar olmamalıdır.

Yuxarıda göstərilən bütün məziyyətləri ilə yanaşı bu şərq şirniyyatının bir nöqsanı vardır: o, çox kalorili məhsuldur. Ona görə də müalicə məqsədi ilə bu məhsuldan gündə 50 qram (çox yox) yemək olar.

## *Etibarsız sayılır*

Stomatologiya fakültəsinin V kurs, 760[b] qrup tələbəsi İmanlı Pərviz İbrahim oğlunun adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.



*Niftəliyev Zəkanı 8 yaşı münasibətilə babaları İrza, İlham, nənələri Lətifə, Narifə, atası Taleh, anası Limayət, bacısı Lətifə və bütün doğmaları səmimi qəlbdən təbrik edir, onun əla qiymətlərlə oxumasını, Vətənə layiqli övlad olmasını arzulayırlar!*

## Allah rəhmət eləsin!

Biofiziki və bioüzvi kimya kafedrasının əməkdaşları kafedranın dosenti Sunar xanıma bacısı
**Sənubər xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan tarixi, iqtisadiyyat və hüququn əsasları kafedralarının əməkdaşları Azərbaycan dili kafedrasının dosenti Məfkurə xanım Hüseynovaya əzizi
**Fazil müəllimin**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Şüa diaqnostikası və şüa terapiyası kafedrasının əməkdaşları kafedranın assistenti Aydın Əliyevə nənəsi
**Əskinaz xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Şüa diaqnostikası və şüa terapiyası kafedrasının əməkdaşları kafedranın assistenti Xanım Bağırovaya dayısı
**Rafiq müəllimin**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Ümumi və toksikoloji kimya kafedrasının kollektivi kafedranın əməkdaşı Tağızadə Günaya qaynanası
**Şərqiyə xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan tarixi, iqtisadiyyat və hüququn əsasları kafedralarının əməkdaşları Azərbaycan tarixi kafedrasının laborantı Səbinə Əliyevaya dayısı
**Kərim Soltanovun**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
**ELDAR İSMAYIL**

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

**ÜNVANIMIZ:**
Mərdanov qardaşları - 100
2-ci mərtəbə,
tel.: 595-24-97

Lisenziya N - 022633
İndeks -0269
Sayı 3000
Sifariş: 920